Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 11 – 16 fevral 2025-ci il •**

"Əmək bazarı" İşçi qrupunun iclası

13.02.2025

report.az

**“Əmək bazarı” işçi qrupunun 2025-ci il üçün Fəaliyyət Planı müzakirə olunub**



Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərlik etdiyi “Əmək bazarı” işçi qrupunun növbəti iclası keçirilib.
"Report" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyindən bildirilib.
İclasda işçi qrupun rəhbəri, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, Komissiyanın Katibliyinin rəhbəri, Prezident Administrasiyasının sektor müdiri Vüsal Şıxəliyev, işçi qrupunda təmsil olunan hökumət və qeyri-hökumət qurumlarının nümayəndələri iştirak ediblər.
İşçi qrupunun 2024-cü il üçün Fəaliyyət Planının icrası, habelə Dünya Bankı Qrupunun “Business Ready” hesabatının “İşçi qüvvəsi” indikatoru ilə bağlı 2024-cü il üzrə Yol Xəritəsi üzrə görülmüş işlərə dair təqdimatlar edilib.
Görüşdə, həmçinin əmək bazarının inkişaf etdirilməsi, əmək qanunvericiliyinin təkmilləşdirilməsi, aktiv əmək bazarı proqramlarının genişləndirilməsi və işçi qüvvəsinin bacarıqlarının artırılması istiqamətlərində atılan addımlar qeyd olunub.
Hesabatın müvafiq alt-indikatoru üzrə aparılan diaqnostikanın ilkin nəticələrindən, 2025-ci ildə qarşıda duran prioritetlərdən bəhs olunub.

“Əmək bazarı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 23.02.2024-cü tarixində təsdiq olunub.

“Əmək bazarı” işçi qrupunun 2025-ci il üçün Fəaliyyət Planının və 2025-ci il üçün “Business Ready” hesabatının “İşçi qüvvəsi” indikatoru üzrə Yol Xəritəsinin layihələri müzakirə edilib.

**Mənbə:**

https://report.az/sosial-mudafie/emek-bazari-isci-qrupunun-2025-ci-il-ucun-fealiyyet-plani-muzakire-olunub/

## Digər saytlar və portallar

1. https://report.az/ru/socialnaya-zashhita/rabochaya-gruppa-rynok-truda-obsudili-plan-dejstvij-na-2025-god/
2. https://azertag.az/xeber/emek_bazari_ischi_qrupunun_2025_ci_il_uchun_fealiyyet_plani_muzakire_olunub-3417111
3. https://sosial.gov.az/media/xeberler/emek-bazari-isci-qrupunun-2025-ci-il-ucun-fealiyyet-planinin-ve-business-ready-hesabati-uzre-yol-xeritesinin-layiheleri-muzakire-olunub
4. https://www.bayraqdar.info/2025/02/14/em%c9%99k-bazari-isci-qrupu-bir-araya-g%c9%99lib/
5. https://www.aznews.az/news/inwork/345196.html
6. https://operativmedia.az/post/79009/emek-bazari-isci-qrupunun-2025-ci-il-ucun-fealiyyet-plani-muzakire-olunub
7. https://www.azerbaijan-news.az/az/posts/detail/emek-bazari-isci-qrupunun-2025-ci-il-ucun-fealiyyet-plani-muzakire-olunub-1739464651/352606
8. https://crossmedia.az/az/article/17447
9. https://innews.media/az/news/id-42720
10. https://naxcivanxeberleri.com/bloq/emek-bazari-isci-qrupunun-2025-ci-il-ucun-fealiyyet-plani-muzakire-olunub-62140
11. https://lider-media.az/index.php?newsid=10789
12. https://qaziler.az/news/country/172477-emek-bazari-isci-qrupunun-2025-ci-il-ucun-fealiyyet-plani-muzakire-olunub
13. https://www.ahik.org/az/media/xeberler/emek-bazari-isci-qrupunun-2025-ci-il-ucun-fealiyyet-planinin-ve-business-ready-hesabati-uzre-yol-xeritesinin-layiheleri-muzakire-olunub
14. https://bakues.az/emek-bazari-isci-qrupunun-2025-ci-il-ucun-fealiyyet-plani-muzakire-olunub/
15. https://far.az/21415-emek-bazari-ishchi-qrupunun-2025-ci-il-uchun-fealiyyet-plani-muzakire-olunub.html
16. https://news.day.az/society/1730098.html
17. https://www.azerbaycan24.com/ru/rabochaya-gruppa-rinok-truda-obsudila-plan-deystviy-na-2025-god/

“Əmək bazarı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 23.02.2024-cü tarixində təsdiq olunub.

**“Biznesin müflisləşməsi” İşçi qrupunun iclası**

**12.02.2025**

apa.az

## “Biznesin müflisləşməsi” İşçi qrupunun növbəti iclası keçirilib




Azərbaycan Respublikası Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Ədliyyə Nazirliyinin rəhbərlik etdiyi “Biznesin müflisləşməsi” İşçi qrupunun 2024-cü ilin yekunları və 2025-ci il üzrə prioritet vəzifələrə həsr olunan geniş tərkibdə iclası keçirilib.

APA xəbər verir ki, iclasda Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Katibliyi, Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının əməkdaşları, İqtisadiyyat Nazirliyi və Nazirliyin yanında Dövlət Vergi Xidməti, Vəkillər Kollegiyasının nümayəndələri və İşçi qrupun digər üzvləri, o cümlədən özəl sektorun nümayəndələri iştirak ediblər.

Tədbirdə Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri, Komissiyanın Katibliyinin rəhbəri Vüsal Şıxəliyev açılış nitqi ilə çıxış edərək Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Biznesin müflisləşməsi” İşçi qrupu çərçivəsində aidiyyəti qurumlarının məqsədyönlü və koordinasiyalı fəaliyyəti nəticəsində qazanılmış nailiyyətlərin ölkəmizdə biznes mühitinin daha da yaxşılaşdırılmasına və beynəlxalq reytinqlərin yüksəlməsinə xidmət etdiyini bildirib. Daha sonra o, işçi qrupun yeni rəhbərini iclas iştirakçılarına təqdim edib.

“Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi14.05.24-cü il tarixində təsdiq olunub.

Azərbaycan Respublikası ədliyyə nazirinin müavini, İşçi qrupun rəhbəri Abiddin Hüseynov çıxış edərək 2025-ci il üzrə qarşıda duran prioritet vəzifələr və biznesin müflisləşməsi sahəsinin daha da inkişaf etdirilməsi ilə əlaqədar ötən dövrdə görülən işlər barədə məlumat verib, işçi qrupun fəaliyyəti nəticəsində əldə edilmiş əsas nailiyyətləri səsləndirib.

Qeyd olunub ki, 2024-cü il üzrə Yol Xəritəsinin icrası ilə bağlı "Biznesin müflisləşməsi" İşçi qrupu tərəfindən təşkilati, qanunvericilik və maarifləndirici işlər görülüb. Yol Xəritəsinin fəaliyyət istiqamətləri üzrə müəyyən edilmiş tədbirlər ötən dövr ərzində əsasən müvəffəqiyyətlə icra edilib, bir sıra tədbirlərin icrası isə 2025-ci ildə də davam etdiriləcək.

İclas zamanı bildirilib ki, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın tərkibində 33 işçi qrupu var.

Qeyd olunub ki, İşçi qrupun üzvləri tərəfindən Yol Xəritəsində nəzərdə tutulmuş tapşırıqlar üzrə əsas nailiyyətlər təqdim olunub və 2025-ci il üçün Yol Xəritəsinin hazırlanmasına dair fikir mübadiləsi aparılıb.

**Mənbə:**

https://apa.az/sosial/biznesin-muflislesmesi-isci-qrupunun-novbeti-iclasi-kecirilib-888261

**Digər saytlar və portallar**

1. https://report.az/biznes-xeberleri/biznesin-muflislesmesi-isci-qrupunun-rehberi-deyisib/
2. https://report.az/ru/biznes/zamministra-yusticii-vozglavil-rabgruppu-po-voprosam-svyazannym-s-bankrotstvom-biznesa/
3. https://oxu.az/digar/biznesin-muflislesmesi-isci-qrupunun-novbeti-iclasi-kecirilib
4. https://qafqazinfo.az/news/detail/biznesin-muflislesmesi-isci-qrupunun-novbeti-iclasi-kecirildi-fotolar-461639
5. https://azertag.az/xeber/biznesin_muflislesmesi_ischi_qrupunun_novbeti_iclasi_kechirilib-3415083
6. https://www.azerbaycan24.com/biznesin-muflislesmesi-isci-qrupunun-novbeti-iclasi-kecirildi-fotolar/
7. https://fed.az/az/biznes/biznesin-muflislesmesi-i%CC%87sci-qrupunun-novbeti-iclasi-kecirildi-fotolar-223094
8. https://fed.az/az/biznes/biznesin-muflislesmesi-isci-qrupunun-rehberi-deyisib-223071
9. https://biznes.az/biznesin-muflislesmesi-isci-qrupunun-rehberi-deyisib-28803
10. https://www.aznews.az/news/take_a_look/345013.html
11. https://ikisahil.az/post/573090
12. https://sia.az/az/news/social/1229960.html

"Biznesin müflisləşməsi" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi14.05.24-cü il tarixində təsdiq olunub.

13. https://baku.news/biznesin-muflislesmesi-isci-qrupunun-novbeti-iclasi-kecirilib
14. https://ayna.az/biznesin-muflislesmesi
15. https://sesqazeti.az/news/society/1229998.html
16. https://azpolitika.info/?p=784092
17. https://ucnoqta.az/news/218147
18. https://yeniazerbaycan.com/xeberlenti_e117961_az.html
19. https://startup.az/news-content/biznesin-muflisleshmesi-ishchi-qrupunun-novbeti-iclasi-kechirilib-1623?fbclid=IwY2xjawIfKrtleHRuA2FlbQIxMAABHREh9SwkVwimjsLVnHHSBxHL73iGC0dTvrfwx1bbWBztN22crhyIBv7XHg_aem__3Lkb-O9MhITjvUi3Tz-hQ
20. https://faktor.az/az/economy/118212-biznesin-muflislesmesi-isci-qrupunun-novbeti-iclasi-kecirilib
21. https://azerbaijan-news.az/az/posts/detail/biznesin-muflislesmesi-isci-qrupunun-novbeti-iclasi-kecirilibnbspnbsp-1739368283/352470
22. https://azadmedia.az/cemiyyet/111203-biznesin-muflislmsi-ci-qrupunun-novbti-iclas-kecirilib.html
23. https://innews.media/az/news/id-42558
24. https://sizinxeber.az/economy/sosial/69828-biznesin-mflislmsi-ii-qrupunun-nvbti-iclas-keirilib.html
25. https://azturkxeber.az/gundem/4282-biznesin-mflislmsi-ii-qrupunun-nvbti-iclas-keirilib.html
26. https://media.az/economy/planiruetsya-usovershenstvovanie-zakonodatelstva-po-sudebnomu-razbiratelstvu-del-o-bankrotstve
27. https://caliber.az/post/minekonomiki-ar-podgotovilo-popravki-v-zakon-o-bankrotstve
28. https://caliber.az/post/naznachen-novyj-rukovoditel-rabochej-gruppy-bankrotstvo-biznesa
29. https://nedelia.az/ru/news/98710/v-azerbaydzhane-planiruyut-usovershenstvovat-zakonodatelstvo-po-sudebnomu-razbiratelstvu-del-o-bankrotstve
30. https://icma.az/ru/news/naznachen-novyj-rukovoditel-rabochej-gruppy-bankrotstvo-biznesa-496656
31. https://icma.az/ru/news/minekonomiki-ar-podgotovilo-popravki-v-zakon-o-bankrotstve-496987
32. https://www.azerbaycan24.com/ru/v-azerbaydzhane-planiruyut-usovershenstvovaty-zakonodatelystvo-po-sudebnomu-razbiratelystvu-del-o-bankrotstve/
33. https://www.azerbaycan24.com/ru/zamministra-yustitsii-vozglavil-rabgruppu-po-voprosam-svyazannim-s-bankrotstvom-biznesa/
34. https://ru.far.az/38818-zamministra-yusticii-vozglavil-rabgruppu-po-voprosam-svyazannym-s-bankrotstvom-biznesa.html

“Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi14.05.24-cü il tarixində təsdiq olunub.

report.az

**Вюсал Шихалиев: В Азербайджане готовится пакет предложений для реализации мер в сфере законодательства о банкротстве**



В Азербайджане готовится пакет предложений с целью реализации системных мероприятий, касающихся совершенствования законодательства о банкротстве.

Как сообщает Report, об этом сказал руководитель секретариата комиссии по бизнес-среде и международным рейтингам Вюсал Шихалиев на заседании рабочей группы "Банкротство бизнеса".

По его словам, сегодня основной целью является приведение законодательной базы по банкротству в соответствие с международными стандартами: "Действующий закон, регулирующий процедуру банкротства, должен быть обновлен в соответствии с современными вызовами. С этой целью готовится пакет предложений для реализации системных мер по совершенствованию законодательства, что внесет существенный вклад в регулирование процесса банкротства бизнеса".

**Mənbə:**

https://report.az/ru/biznes/vyusal-shihaliev-v-azerbajdzhane-gotovitsya-paket-predlozhenij-dlya-realizacii-mer-v-sfere-zakonodatelstva-o-bankrotstve/

**Digər saytlar və portallar**

1. https://report.az/biznes-xeberleri/vusal-sixeliyev-azerbaycanda-muflislesme-ile-bagli-teklifler-paketi-hazirlanir/

“Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi14.05.24-cü il tarixində təsdiq olunub.

2. https://fed.az/az/diger/quotazerbaycanda-muflislesme-ile-bagli-teklifler-paketi-hazirlanirquot-223075
3. https://afn.az/159363-azerbaycanda-muflislesme-ile-bagli-teklifler-paketi-hazirlanir.html
4. https://informator.az/news_14548.html
5. https://biznes.az/azerbaycanda-muflislesme-ile-bagli-teklifler-paketi-hazirlanir-28804
6. https://crossmedia.az/az/article/17193
7. https://az.azvision.az/news/375687/news.html
8. https://respublika-news.az/az/news/azerbaycanda-muflislesme-ile-bagi-teklifler-paketi-hazirlanir
9. https://tv1.az/azerbaycanda-muflislesme-ile-bagi-teklifler-paketi-hazrlanir
10. https://caliber.az/post/shihaliev-ob-usovershenstvovanii-zakonodatelstva-o-bankrotstve
11. https://icma.az/ru/news/shihaliev-ob-usovershenstvovanii-zakonodatelstva-o-bankrotstve-496658
12. https://www.azerbaycan24.com/ru/vyusal-shihaliev-v-azerbaydzhane-gotovitsya-paket-predlozheniy-dlya-realizatsii-mer-v-sfere-zakonodatelystva-o-bankrotstve/

“Biznesin müflisləşməsi” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi14.05.24-cü il tarixində təsdiq olunub.

## “İnsan kapitalı” İşçi qrupunun fəaliyyəti

**12.02.2025**

yeniazerbaycan.az

**Hədəf rəqabətli insan kapitalına əsaslanan cəmiyyət quruculuğudur**

Hazırda dünyada keyfiyyətli insan kapitalı uğrunda rəqabət dərin xarakter alıb və insan ən zəngin kapital kimi dünya innovasiya inkişafının əsas fundamentini təşkil edir. İnsan kapitalı təhsil, elm, səhiyyə, mədəniyyət, incəsənət, informasiya xidmətinə əsaslanmaqla formalaşır. İnsan kapitalı kompleks sahələri əhatə etməklə istər iqtisadi, istər sosial, istərsə də siyasi-hüquqi sahəyə geniş təsir imkanlarına malikdir. Biznes mühitinin yaxşılaşdırılmasında insan kapitalı amilinin rolu çox önəmlidir. Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev Bakıda keçirilən İnsan İnkişafı Forumunda bildirib ki, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in 5 əsas prioritetindən biri məhz rəqabətli insan kapitalına əsaslanır. Bu yöndə əlverişli mühit və ekosistemin yaradılmasına nail olunub. Biznes mühitinin yaxşılaşdırılması məqsədilə fəaliyyət göstərən beynəlxalq reytinqlər üzrə konvensiya isə insan inkişafına aid üç xüsusi işçi qrupun işini tənzimləyir.

***İqtisadi tərəqqi və insan zəkası***

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov isə bildirib ki, hazırda ölkələr arasında rəqabətin artması insan kapitalı fonunda daha qabarıq tərzdə nəzərə çarpır. Müxtəlif ölkələr insan kapitalının formalaşmasına böyük önəm verir, davamlı sərmayələr yatırır. Yüksək inkişaf etmiş ölkələrin bügünkü uğurlu və davamlı iqtisadi tərəqqiyə çatması da məhz insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilib. Müasirləşən cəmiyyətlərdə bilik və bacarıqlar kapital sayılır və iqtisadiyyatın əsas resursuna çevrilir. Hazırda iqtisadi tərəqqi kapital və təbii sərvətlərdən deyil, insan zəkası və innovasiyalardan asılıdır. Onun sözlərinə görə, rəqabətədavamlı innovativ iqtisadiyyat quruculuğu yolunda öz qətiyyətli islahatları ilə irəliləyən Azərbaycanda ötən illərdə biznes mühitinin daha da yaxşılaşdırılması üçün mühüm işlər görülüb, əhəmiyyətli islahatlar həyata keçirilib, bu proses davam etməkdədir: Ölkəmizdə insan kapitalının inkişafı və beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılması məqsədilə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın “İnsan kapitalı” İşçi qrupunun

“İnsan kapitalı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

fəaliyyəti bu sırada xüsusi əhəmiyyət kəsb edir. İşçi qrupunda təmsil olunan KOBİA strateji qərarların qəbuluna və praktik həllərin tətbiqinə töhfə verir ki, bu da sahibkarlıq sektoru üçün yeni imkanların əldə edilməsi deməkdir. Sahibkar üçün yalnız biznes bilikləri deyil, eyni zamanda düşüncə tərzi, xarakter və praktiki təcrübə də vacib olduğundan qeyd edilən platformalar biznes icması üçün yeni innovasiyaların mənimsənilməsinə töhfə verir.

***KOB-ların rəqəmsal bacarıqları dəstəklənəcək***

İnsan kapitalının inkişafında rəqəmsal transformasiya, süni intellekt və digər innovasiyalar ənənəvi biznesin müasir biznes modellərinə keçidində də mühüm rol oynayır. Xüsusilə də hazırda rəqəmsal transformasiya kiçik və orta biznesdə (KOB) innovasiyaları sürətləndirmək və bununla da rəqabət qabiliyyətini gücləndirmək üçün əsas vasitə kimi ön plana çıxır. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda kiçik və orta biznesin (KOB) inkişafının yeni və daha səmərəli stimullarla təşviqi, rəqəmsal cəmiyyətə tam inteqrasiya üçün yeni strateji hədəflər müəyyən edilib. Bu məqsədlə yeni hazırlanan kiçik və orta sahibkarlığın rəqəmsallaşması proqramı bu istiqamətdə nəzərdə tutulan prioritetləri özündə əks etdirir. Biznesin yeni rəqabədavamlı məhsullar istehsalı və bazarlara çıxışı, qlobal dəyər zəncirinə inteqrasiyası, öz innovativ fəaliyyətini yüksəltməsi baxımından yeni proqram mühüm əhəmiyyət kəsb edir. Bu çərçivəyə əsasən, KOB-ların rəqəmsal alətlər, strategiyalar və qabaqcıl təcrübələr haqqında təlim proqramları təşkil olunacaq, ən innovativ təşəbbüslərə cəlb edilməklə bacarıqların artırılması dəstəklənəcək.

Müasir iqtisadiyyat quruculuğunda ön planda yer alan gənclərin intellektual bilik və bacarıqlarının artmasında xarici maliyyə təşkilatları ilə birgə icra edilən layihələr də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan bu innovasiya yönümlü layihələrdə əsas tərəfdaşlardan biri kimi Dünya Bankına (DB) xüsusi önəm verir. Dövlət Məşğulluq Agentliyi ötən il DB-nin maliyyə dəstəyi ilə həyata keçirdiyi özünüməşğuluq proqramına 2500 gənci cəlb edib. Ötən il təqribən 16 minə yaxın gənc müxtəlif peşə kurslarına cəlb edilib, müasir peşə yönümlü xidmətlərdən faydalanıblar. “DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi” də gənclərin potensialının inkişaf etdirilməsində müasir platformalardan biri kimi əhəmiyyət daşıyır.

**Mənbə:**

https://yeniazerbaycan.com/xeberlenti_e117910_az.html

“İnsan kapitalı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

respublika-news.az

## Bakıda İnsan İnkişafı Forumu




"Baku Marriot Hotel Boulevard"da KOBİA-nın tərəfdaşlığı, "Paşa Holding"in dəstəyi ilə İnsan İnkişafı Forumu baş tutub. Forumda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, "PAŞA Holding" MMC-nin baş icraçı direktoru Cəlal Qasımov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc və digər şəxslər iştirak ediblər.

Milli Məclisin deputatı Zahid Oruc Azərbaycanın inkişafının yeni mərhələsində qarşıda dayanan mühüm çağırışlardan və Prezident İlham Əliyevin liderliyi ilə qazanılan uğurlardan danışıb, insan kapitalının dəyərindən bəhs edib: "Bəli, İkinci Qarabağ müharibəsinin nəticələri, ilk növbədə, insan kapitalının gücü ilə birbaşa bağlıdır. Bir vaxtlar marşal İvan Baqramyan öz ölkəsinin 100 yeniyetməsini seçib Moskvaya aparmışdı ki, onlar gələcəkdə sovet akademiyasının ön sıralarını tutacaqlar. Onun planı işlədi. Onlarla erməni akademiki Sovetlər Birliyinin rəhbərliyinə yüksəldilər, xalqımıza Birinci Qarabağ müharibəsində həlledici zərbəni də onlar vurdular. Lakin 2021-ci ildə, sabiq prezident Armen Sarkisyan dedi ki, biz elmdə, mədəniyyətdə, yaradıcılıqda, qlobal informasiya məkanında, nəhayət, ordu quruculuğunda Prezident İlham Əliyevə uduzduq".

“İnsan kapitalı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

İnsan kapitalına sərmayənin strateji əhəmiyyətindən bəhs edən millət vəkili qeyd edib ki, insan kapitalına yatırılan sərmayə ən dayanıqlı gəlirdir. Azərbaycanın da gələcək inkişafı məhz insan kapitalına bağlıdır. Qarabağ təkcə hərbi qüdrət deyil, elm və təhsil qalası olmalıdır. Prezidentin təşəbbüsü ilə Qarabağ Universiteti yaradılaraq bu bölgənin Qafqazın ən güclü mərkəzinə çevrilməsi hədəflənir. Ona görə də deyirik ki, ən böyük sərvət insandır!"PAŞA Holdinq" MMC-nin baş icraçı direktoru Cəlal Qasımov təhsil sisteminin dəyişməsindən və bazar tələbləri ilə uyğunlaşdırılmasından danışıb: "Təhsil sistemi təkcə müəyyən strukturlardan ibarət deyil - əksinə, dinamik bir mexanizmdir və bu sistemin təkmilləşdirilməsi ciddi yanaşma tələb edir. Təhsildən danışarkən qeyd etmək istəyirəm ki, müasir dövrdə bilikdən bacarıqlara keçid zəruridir. Artıq biliklərə çox sadə yollarla, internet vasitəsilə saniyələr içində çıxış əldə etmək mümkündür. Amma bacarıq tamam fərqli bir anlayışdır. Biz uşaqları və gəncləri bacarıqlara öyrətməliyik. Bu səbəbdən təhsil sistemi bacarıqların öyrənilməsinə yönəlməlidir. Şagirdlər və gənclər öz maraq və potensiallarını kəşf etməlidirlər. Bir çox insan həyat seçimlərini valideynlərin və ya başqalarının tövsiyələrinə əsasən edir. Lakin insan yalnız öz sevdiyi işlə məşğul olduqda daha məhsuldar və xoşbəxt olur. Dövlət və ictimai təşkilatlar gəncləri bu istiqamətdə dəstəkləməli və öz yollarını seçmək üçün şərait yaratmalıdırlar. Eyni zamanda, iş dünyasında düzgün qiymətləndirmə və motivasiya sistemlərinin qurulması vacibdir. İnsanları yalnız nəticəyə görə deyil, niyyətlərinə görə də dəyərləndirmək lazımdır. Səhvlərə görə dərhal cəzalandırmaq təşəbbüs göstərmək istəyini azalda bilər. Dürüstlük prinsipləri və ədalətə əsaslanan sistemlərin qurulması hər bir dövlət və şirkət üçün əsas prioritet olmalıdır. Gənclərin sərbəst düşünməsi



"İnsan kapitalı" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

və düzgün qərarlar qəbul etməsi üçün şərait yaradılmalıdır. Nəticə etibarilə hər bir insan öz inkişafı üzərində mütəmadi işləməlidir. Hər gün özünü dünənki günlə müqayisə edərək daha bacarıqlı, daha bilikli olmaq üçün çalışmaq ən düzgün yanaşmadır".

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev çıxışı zamanı insan kapitalının inkişafında özəl sektorun rolunun mühüm əhəmiyyət daşıdığını, həmçinin dövlət qurumlarının təqdim etdiyi siyasət alətlərinin özəl sektor tərəfindən mənimsənilməsi və düzgün tətbiqinin böyük əhəmiyyət kəsb etdiyini qeyd edib: "Bu baxımdan, birbaşa iştirakçıların - biznes dairələrinin fikirləri mühüm rol oynayır. Mövcud biznes strukturlarının inkişafı ilə yanaşı, beynəlxalq platformalarda, xüsusilə Afrika Universitetlər Komissiyası əsasında fəaliyyətlərin genişləndirilməsi də önəmlidir".

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov bildirib ki, ötən il nazirlik tabeliyindəki Dövlət Məşğulluq Agentliyi Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirdiyi özünüməşğulluq proqramı çərçivəsində 2 500 gənci dəstəkləyib. Ötən il təqribən 16 minə yaxın gənc müxtəlif peşə kurslarına cəlb olunub. İl ərzində 150 əmək yarmarkası keçirilib və peşəyönümlü xidmətlərdən faydalananların sayı 200 mini keçib. 2024-cü ildən minimum əməkhaqqının 400 manata çatdırılması gənclər üçün əhəmiyyətlidir. Gənclər ilk iş yerlərində minimum əməkhaqqı ilə çalışmaq məcburiyyətindədirlər. Lakin əsas məsələ onların təcrübə toplaması və bacarıq qazanmasıdır. "DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi" MMC-də xüsusi ehtiyacları olan şəxslərə və gənclərə təcrübə toplamaq üçün şərait yaradılıb. İl ərzində burada təxminən 200 gənc öz potensialını inkişaf etdirmək imkanı əldə edib. Ölkəmizdə dövlət və özəl sektorun birgə fəaliyyəti ilə gənclərin inkişafına xüsusi diqqət yetirilir. Əmək bazarına gənclərin daxil olması, ilkin kadrların hazırlanması və inklüziv imkanların yaradılması mühüm əhəmiyyət kəsb edir.

Forumda çıxış edən İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov sahibkarlığın dəstəklənməsi, innovasiyaların təşviqi və sosial məsuliyyətin artırılmasının əsas prioritetlərdən olduğunu vurğulayıb. Bildirib ki, son illərdə ölkəmizdə dizel sənayesinin inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülüb və bu

“İnsan kapitalı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

sahədə əhəmiyyətli islahatlar həyata keçirilib. İnsan kapitalının inkişafı üçün Dizel Sənayesi və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın fəaliyyəti artıq yüz ilə yaxın müddətdir davam edir. Bu komissiyada KOBİA təmsil olunur və fəaliyyətləri strateji qərarların qəbuluna və praktik həllərin tədqiqinə mühüm töhfə verir.

Startapların inkişafı ilə bağlı müxtəlif tədbirlərin həyata keçirildiyini bildirən Orxan Məmmədov bu tədbirlərin startap hekayələrinin paylaşılması və real biznes təcrübəsinin təqdim olunması ilə uşaqlar və gənclərin formalaşmasına müsbət təsir göstərdiyini bildirib. Keçən il ərzində agentliyin mentorluq xidmətlərindən faydalananların 40 faizini gənclərin təşkil etdiyini, ümumilikdə 200-ə yaxın sahibkarlıq subyektinə dəstək göstərildiyini və startap şəhadətnaməsi alanların 50 faizə qədərinin gənclər olduğunu qeyd edib. Bu layihələr insan kapitalının inkişafına mühüm töhfə verəcək.

Tədbir çərçivəsində "İnsan inkişafı: Uşaq və gənclərdə biznes üçün kompetensiyaların formalaşdırılması" mövzusunda panel müzakirə təşkil olunub, "Balaca tacirlər" və "Azərbaycan biznes mədəniyyəti" kitablarının təqdimatı keçirilib.

**Mənbə:**

https://respublika-news.az/az/news/bakida-insan-inkisafi-forumu

**Digər saytlar və portallar**

1. https://smb.gov.az/az/all-news/insan-inkisafi-forumu-kecirilib
2. https://news.day.az/azerinews/1729455.html
3. https://oxu.az/iqtisadiyyat/bakida-insan-inkisafi-forumu-kecirilib
4. https://crossmedia.az/az/article/16912
5. https://news.milli.az/country/1262910.html
6. https://www.threads.net/@sosial.gov.az/post/DF7z2ybM9yl
7. https://bbn.az/insan-inkisafi-forumu-kecirilib/
8. https://tehsil.biz/news/az/81868/tehsil.biz
9. https://subyekt.az/bakida-insan-inkisafi-forumu-kecirilir/
10. https://tehsil365.news/az/news/23206/
11. https://lider-media.az/index.php?newsid=10657
12. https://www.financetime.az/news/news-view.php?id=38509
13. https://innews.media/az/news/id-42604

“İnsan kapitalı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

report.az

## Orxan Məmmədov: "Bu gün iqtisadi tərəqqi insan zəkası və innovasiyadan asılıdır"




Bu gün dünyada baş verən proseslər göstərir ki, iqtisadi tərəqqi kapital və təbii sərvətlərdən deyil, insan zəkası və innovasiyalardan asılıdır.

"Report" xəbər verir ki, bunu İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Bakıda keçirilən İnsan İnkişafı Forumunda bildirib.

Onun sözlərinə görə, hər bir ölkənin prioriteti isə yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır: "Müxtəlif ölkələrin bügünkü uğurlu və davamlı iqtisadi yüksəlişi insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilib. Bu gün müasirləşən cəmiyyətlərdə bilik və bacarıqlar kapital sayılır və iqtisadiyyatın əsas resursuna çevrilir".

O. Məmmədov deyib ki, son illər ölkəmizdə biznes mühitinin daha da yaxşılaşdırılması üçün mühüm işlər görülüb, əhəmiyyətli islahatlar həyata keçirilib, bu proses davam etməkdədir: "Ölkəmizdə insan kapitalının inkişafı və beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşdırılması məqsədilə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "İnsan kapitalı" İşçi qrupunun fəaliyyətini xüsusi qeyd etmək olar. Bu işçi qrupunda KOBİA da təmsil olunur. Bu fəaliyyətlər nəticə olaraq strateji qərarların qəbuluna və praktik həllərin tətbiqinə töhfə verir. Sahibkarlıq bir proses olaraq insanı uğurlu iş adamına çevirən müəyyən mərhələləri və keyfiyyətləri özündə əks etdirir. Sahibkar olmaq üçün yalnız biznes bilikləri deyil, eyni zamanda düşüncə tərzi, xarakter və praktiki təcrübə də

"İnsan kapitalı" işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

vacibdir. Bu keyfiyyətlərin erkən yaşlardan formalaşması uzunmüddətli uğurun açarıdır".

"Bu dövrdə sahibkar düşüncə tərzinin təşviqi uşaqlarda kreativlik, riskə hazırlıq, problemləri həll etmə bacarığı və müstəqillik kimi keyfiyyətləri inkişaf etdirməyə kömək edir. Sahibkarlıq bacarıqlarının formalaşması iqtisadiyyatın dayanıqlı inkişafına müsbət təsir göstərən əsas amillərdən biridir. Yüksək təhsil səviyyəsinə malik peşəkar kadrların formalaşması ölkənin intellektual potensialının əsasıdır. Bu çağırışlardan irəli gələn vəzifələrin həyata keçirilməsi, ehtiyacların qarşılanmasında həm dövlət, həm də özəl təhsil müəssisələrinin rolu danılmazdır. Təhsil müəssisələri biznes fəaliyyətinin təşviqində, innovasiyaların dəstəklənməsində və sosial məsuliyyətin təbliğində fəal iştirak edir. Erkən yaşlarda biznes səriştələrinin formalaşdırılması sistemli yanaşma tələb edir. Bu proses kreativliyi, liderlik bacarıqlarını, problemləri həll etmə qabiliyyətlərini və sahibkarlıq ruhunu inkişaf etdirmək məqsədi daşıyır. Bu bacarıqlar mənimsənilərsə, gələcəkdə uğurlu sahibkarların da sayı çox olar", - deyə sədr əlavə edib.

**Mənbə:**

https://report.az/biznes-xeberleri/orxan-memmedov-bu-gun-iqtisadi-tereqqi-insan-zekasi-ve-innovasiyadan-asilidir/

**Digər saytlar və portallar**

1. https://report.az/ru/biznes/orhan-mamedov-segodnya-ekonomicheskij-progress-zavisit-ot-chelovecheskogo-intellekta-i-innovacij/
2. https://ikisahil.az/post/572858

“İnsan kapitalı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

day.az

**Biznes mühitinin yaxşılaşdırılmasında insan kapitalı və amili çox önəmlidir - Vüsal Şıxəliyev**




Biznes mühitinin yaxşılaşdırılmasında insan kapitalı və insan amili çox önəmlidir. Day.Az xəbər verir ki, bunu bu gün Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin sektor müdiri Vüsal Şıxəliyev Bakıda keçirilən İnsan İnkişafı Forumunda deyib.

O bildirib ki, bu sahədə biznes mühiti və beynəlxalq reytinqlər üzrə konvensiya fəaliyyət göstərir: "Bu konvensiyada bilavasitə insan inkişafına aid üç xüsusi işçi qrupu fəaliyyətdədir ki, onların arasında mən insan kapitalı işçi qrupunu xüsusi vurğulamaq istərdim.

Gənclərin və uşaqların biznes təfəkkürünün formalaşdırılması, onların biznes düşüncə tərzinin yeni, müasir çağırışlar əsasında yaradılması bizim üçün ən aktual mövzulardandır".

Vüsal Şıxəliyev qeyd edib ki, cəmiyyətdə artıq müasir çağırışlar ondan ibarətdir ki, resursların tükənən xarakterli olması və eyni zamanda 4-cü sənaye inqilabının bu gün yaratdığı yeni sahələr, yeni iş prinsipləri insan kapitalına xüsusi diqqət yetirməyi vacib bilir:

"Bu sahədə daim öyrənmək, inkişaf etmək, yeni biliklər və bacarıqların öyrənilərək tətbiq edilməsi əsas prioritet kimi müəyyən edilməlidir.

İnsan kapitalının inkişafında özəl sektorun rolunun imkanları və resursları nədən ibarətdir? Bu sahədə dövlət qurumlarının təqdim etdiyi siyasət alətlərinin məhz özəl

“İnsan kapitalı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

sektor tərəfindən praktikada tətbiqinin nailiyyətləri bizim üçün çox önəmlidir. Nəzərə alsaq ki, qanun və qaydaların biznesə tətbiqi və reallaşdırılmasında bilavasitə iştirakçıları biznes dairələridir. Bu baxımdan dövlət və biznes dialoqunda biz istərdik ki, əməkdaşlıq imkanları daha da genişləndirilsin".
"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in 5 əsas prioritetindən biri məhz rəqabətli insan kapitalına əsaslanır. Bu yöndə ölkəmizdə insan kapitalının inkişafına yaradılmış əlverişli mühit və bu sahədə infrastruktur proseslərindən tutmuş cəmiyyətin bütün maraqlı tərəflərinin prosesdə inkluziv iştirakı üçün imkanlar və ekosistemin yaradılmasına nail olunmuşdur", - dəyə. V. Şıxəliyev vurğulayıb.

**Mənbə:**

https://news.day.az/azerinews/1729362.html

### Digər saytlar və portallar

1. https://fed.az/az/diger/quotbiznes-muhitinin-yaxsilasdirilmasinda-insan-kapitali-ve-insan-amili-cox-onemlidirquot-222933
2. https://report.az/biznes-xeberleri/vusal-sixeliyev-biznes-muhitinin-yaxsilasdirilmasinda-insan-kapitali-cox-onemlidir-1/
3. https://report.az/ru/biznes/vyusal-shihaliev-chelovecheskij-kapital-ochen-vazhen-v-uluchshenii-biznes-sredy/
4. https://az.trend.az/business/4004041.html
5. https://www.aznews.az/news/inwork/344898.html

“İnsan kapitalı” işçi qrupunun 2024-cü il üzrə Fəaliyyət Planı 16.02.2024-cü il tarixində təsdiq olunub

**“İnternet bağlantısı və internet infrastrukturu üzrə” işçi qrupunun fəaliyyəti**

**11.02.2025**

azertag.az

**Fevralın 11-i Beynəlxalq Təhlükəsiz İnternet Günüdür**

Hər ilin fevral ayında bir çox ölkədə ilin ikinci ayının ikinci tam həftəsinin ikinci günündə Təhlükəsiz İnternet Gününü (Safer Internet Day, SID) qeyd edilir.

AZƏRTAC xəbər verir ki, hər il Beynəlxalq Təhlükəsiz İnternet Gününün mövzusu müəyyən edilir. Bu, internet istifadəçilərinin qorunması və yeni proqramların həyata keçirilməsi sahəsində aktual məsələlərə aiddir. Bu il Beynəlxalq Təhlükəsiz İnternet Günü “Doğrucul olmaq çox yaxşıdır? Özünüzü və başqalarını onlayn fırıldaqlardan qoruyun” mövzusunda qeyd olunur.

Beynəlxalq Təhlükəsiz İnternet Günü internet istifadəçilərinin hər il qarşılaşdıqları onlayn problemləri və ya mövzuları vurğulayır. 2004-cü ildə Avropa Komissiyasının təşəbbüsü ilə təsis edilən bu əlamətdar gün dünyanın 170-dən çox ölkəsində, o cümlədən Azərbaycanda qeyd olunur. Onun məqsədi bütün dünyada uşaqlar və gənclər tərəfindən onlayn texnologiyalardan və mobil telefonlardan daha təhlükəsiz, məsuliyyətli istifadəni təşviq etməkdir.

İnternetin özü tərəqqinin və onun məntiqi mərhələsinin bir hissəsi olmaqla yanaşı, yeni kəşflər və inkişaflar üçün bir növ addımın vazkeçilməz amili olub. O, onlayn öyrənmədən tutmuş əyləncəyə qədər müxtəlif imkanlar təklif edir. Koronavirus pandemiyası zamanı internet ünsiyyət üçün əvəzsiz vasitəyə çevrilib, hətta bu gün də insanların dostları və ailələri ilə əlaqə saxlamasının əsas vasitələrindən biri olaraq qalır. Ancaq müsbət cəhətlərlə yanaşı, internetlə bağlı mənfi xüsusiyyətlər də var.

İnternetin bəşəriyyətin inkişafındakı nəhəng rolunu dərk edən bu əlamətdar günün qeyd edilməsinin təşəbbüskarları ictimaiyyətin diqqətini ümumdünya şəbəkəsinin insan həyatında mənfi rol oynayan tərəflərinə və xüsusiyyətlərinə yönəltməyə çalışıblar.

Beynəlxalq Təhlükəsiz İnternet Gününə həsr olunmuş tədbirlərin təşkilatçıları gənc nəslə və onun inkişafına cavabdeh olan yaşlı yaş qruplarının nümayəndələrinə bu qlobal informasiya şəbəkəsində insan əməyinin xüsusiyyətlərini izah etməyə çalışırlar. Onlar diqqəti ona yönəldirlər ki, bir növ informasiya bankı rolunu oynayan internetdən ağıllı şəkildə istifadə etmək, bu məlumat bazasından məhz axtardığınız bilikləri əldə etmək, lazımsızları süzgəcdən keçirmək, özünüzü və yaxınlarınızı ayrı-

“Kommunal xidmətlər (internet)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 09.07.2024-cü il tarixində təsdiq olunub.

ayrı səhifələrin açıq-aşkar “zibilindən”, yalandan, antisosial və əxlaqsız məzmunlardan qorumaq lazımdır.
Təşkilatçılar, ilk növbədə, şüuru formalaşma mərhələsində olan və bəzən müqavimət göstərə bilməyən gənc nəsil üçün internetdə təhlükəsizlik problemindən narahat olublar.
Yeri gəlmişkən, “internet təhlükəsizliyi” anlayışı “kibertəhlükəsizlik” və “kompüter təhlükəsizliyi” kimi daha geniş anlayışların bir hissəsidir, brauzer və şəbəkə təhlükəsizliyini, həmçinin onlayn rejimdə olarkən düzgün davranışı ehtiva edir.
Qeyd edək ki, ötən gün Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərlik etdiyi Biznes Mühiti və Beynəlxalq Reytinqlər Komissiyasının internet bağlantısı və internet infrastrukturu üzrə işçi qrupunun növbəti iclası baş tutub.
İclasda Dünya Bankının “Group Business Ready” hesabatının “Kommunal xidmətlər (İnternet)” göstəricisi ilə bağlı müvafiq sahədə təkmilləşdirmə və kommunikasiyanın həyata keçirilməsi üzrə 2024-cü il üçün Yol Xəritəsi çərçivəsində görülmüş işlər müzakirə edilib, 2025-ci il üçün qarşıda duran vəzifələr müəyyən olunub.

“Kommunal xidmətlər (internet)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 09.07.2024-cü il tarixində təsdiq olunub.

**Mənbə:**

https://azertag.az/xeber/fevralin_11_i_beynelxalq_tehlukesiz_internet_gunudur-3412183

**Digər saytlar və portallar**

1. https://xeberler.az/new/details/34074.htm
2. https://azedu.az/news/88544/fevralin-11-i-beynelxalq-tehlukesiz-internet-gunudurrnrnrn/
3. https://tehsil365.news/az/news/23153/
4. https://fhnews.az/news/details/fevralin-11-i-beynalxalq-tahluumlkasiz-internet-guumlnuumlduumlr-b11965
5. https://lider-media.az/index.php?newsid=10625
6. https://azturkxeber.az/gundem/4174-fevraln-11-i-beynlxalq-thlksiz-internet-gndr.html